


Qərib MEHDİ


# HƏMİŞƏYAŞIL KARANDAŞ

## MƏKTUB

**Hörmətli redaksiya, salam!**

**"Ədalət" qəzeti mənə təsisçi, tələbə ikən "Rast" povestimin qərəzli tənqidinə qarşı sovet sıxaclarından ehtiyatlanmadan etiraz səsini ucaldan Aqil Abbas, baş redaktor, Məmməd Araz yadigarı İradə xanım Tuncay və baş redaktorun müavini, redaksiyanın yorulmaz "yazı maşını" Əbülfət Mədətoğlu imzaları ilə əzizdir. Sevgimi etiraf etmək mənə xoş olardı.**

**2016-cı ilin yubilyarlarından (80 yaş) biri də mənəm. "Üstün" statusumdan istifadə edərək sizə hamının sevdiyi nadir istedad, orijinal üslub sahibi, vətənçi poeziyamızın bayraqdarı Məmməd Araz haqqında xatirələrimi göndərirəm. Onun vaxtilə xeyirxah əli mənə doğru uzanmasaydı, yəqin ki, indi bu məktubu sizə yazmaq imkanında olmayacaqdım. Əməlləri yaşayanın ruhu şad olur.**

**Bu xatirələr M.Arazın həyatına tanış olmayan bir bucaqdan işıq saldığı üçün oxuculara maraqlı görünə bilər. Çap amacı ilə yazımı "Ədalət"in ədalətli ünvanına göndərirəm.**

**Dərin hörmətlə: Qərib Mehdi,**
**Məmməd Araz mükafatı laureatı,**
**03 may 2016, Gəncə şəhəri.**

(əvvəli ötən saylarımızda)

Şair "Professor Gülə məktub"unda təbiətin o biri üzü - heyvanatın üzləşdiyi amansızlığa qarşı etirazını bildirir. Vətənçilik hissi Məmməd Arazın yaradıcılığından bir qırmızı xətt kimi keçir. O, ayrı-ayrı əllərin ucbatından günaha batırılmış cəmiyyəti kəskin tənqid atəşinə məruz qoysa da, Vətən, Millət adı gələndə şairin qələmi əmrə hazır -farağat komandası vəziyyətini alır. Vətəndaşlıq borcu onun deyimlərində təzə obrazlı fikirlərlə açılır. O, bir qeyrətli vətəndaş olaraq ana vətənin başında yox, lap ayağında yer almaqdan qürur duyur:

**Vətən mənə oğul desə, nə dərdim:**
**Mamır olub qayasında bitərdim.**

və ya

**Vətən daşı olmayandan**
**Olmaz ölkə vətəndaşı.**

Çörəyimizi yeyib azğınlaşan erməni işğalçıları vətənimizin 20 faizini qəsb elədi. Ölənlərlə öldük, itənlərlə itkin düşdük, əsir götürülənlərlə əsir alındıq. Köçkünlərimiz qaçqınlarımıza qarışdı. Gözləmədiyimiz hadisədən çaşdıq. Uğursuzluq başımızı aşağı elədi. Arxadan vurulan zərbə, hazır olmadığımız ədalətsiz müharibə bizi xeyli dərəcədə sarsıtdı. İtki vermək olardı, bütövlükdə təslim olmaq yox! Biz düşkünlüyü qəlbimizdən çıxardıb inamımızı özümüzə qaytarmalıydıq. Belə yerdə özünə, sözünə inandığın sənətkarların, şəxsiyyətlərin siyasi xadimlərin çağırışlarına böyük ehtiyac vardı. M.Arazın səsi o səslərin, o çağırışların içində seçilirdi. Şairə görə özünü ələ almaq millətə kifayət edəcəkdi:

**Ana vətən, ata vətən, ağlama!**
**Ağlamağın yeri deyil, ağlama!**

İstər müharibə dövrü olsun, istər dinc dövr - uğur, qələbə vətənlə, dövlətçiliklə həmrəylik, çiyindaşlıq etməkdən keçir. Sən həmişə bu amalla, bu sevgi ilə yaşamalısan. Hələ keçən əsrin 70-ci illərində öncəgörən M.Araz bunu alın yazısı kimi yaddaşımıza həkk edirdi:

Azərbaycan - mayası nur, qayəsi nur ki... Hər daşından alov dilli ox ola bilər. "Azərbaycan" deyiləndə ayağa dur ki, Ana yurdun ürəyinə toxuna bilər.

Məmməd Arazın ilk və son mənzilimiz olan vətən haqqında fikri məlumdur. O, çox istərdi ki, biz də ona qoşulub, onun ağzı ilə deyək:

**Azəri torpağı son kəfənimdi,**
**Doymaram bu qara bezimdən mənim.**

Elə dediyi kimi də var. Ümumilikdə Azərbaycan poeziyası üç vəzn - əruz, heca və sərbəst şeir formaları üzərində bərqərardı. Bu formalar, üslublar, sözün yaxşı mənasında, öz aralarında mübarizə apara-apara, birbirinin uğuruna qısqana-qısqana söz sənətimizi daha da zənginləşdirmişlər. Bu üçlüyün içərisində əruz vəzni qocaman, heca ortayaşlı, sərbəst isə cavan hesab olunur. Son bir neçə əsrdə heca vəzni şifahi ədəbiyyatdan yazılı ədəbiyyata "köç" etməklə öz ərazisini sürətlə genişləndirib ön sıraya çıxdı. Sovet ədəbiyyatı dövründə Azərbaycanda bu vəznə parlaq istedad sahibi, ölməz Səməd Vurğun liderlik edirdi. Onunla yanaşı sərbəst vəzn ustası, bu vəzndə dəyərli əsərlər yaradan qüdrətli şair Rəsul Rza qələm çalırdı. Mən bu sətirləri yazarkən nə ədəbi vəznləri, nə də bu vəznlərdə yazan müqtədir sənətkarlarımızı müqayisə etmək niyyətindəyəm. Mən sadəcə öz müşahidələrimi qələmə alıram və bu müşahidələrin doğruluğuna, qərəzsizliyinə inanıram. S.Vurğun 50-ci illərdə dünyasını dəyişdi. 60-cı illərdə poeziyamızın ağırlığı demək olar ki, R.Rzanın üzərinə düşdü. Necə deyərlər, təkhakimiyyətlilik onu sıxmadı, əksinə, daha da hegemonlaşdırdı. O, mərkəzdənqaçma havasına köklənmiş yeni-yeni əsərlərilə keşiyində durduğu sərbəst vəzni yeni mərhələyə qaldıraraq aparıcı şeir formasına çevirdi. Sanki vaxt Azərbaycanda heç də ümumxalq məhəbbəti qazanmayan sərbəst şeir üsulunun xeyrinə işləyirdi. R.Rza mövqeyini həm də gəncliyə himayədarlığı artırmaqla möhkəmləndirirdi. Sərbəst vəznin təsiri o qədər genişlənmişdi ki, hətta heca vəznində yazdığı əvəsiz şeir nümunələri ilə sağlığında klassikləşən Əli Kərim də intellektual poeziyaya meyilənmişdi. Bu hal çoxlarını qıcıqlandırsa da, təbii sayılmalıydı. "Lenin" poemasını yazan bir müəllif, indi həyata, gedişata daha açıq gözlə baxır, Leninin yaratdığı süni-zorakı quruluşa açıq-örtülü zərbələr-zədələr vurmaqla əsl ədəbi və tarixi xidmətini ortalığa qoyurdu. Təəssüf doğuran hal orasındaydı ki, sərbəst vəznin üstünlük qazanmasından bir qrup yaradıcı gənc vəziyyətdən sui-istifadə edirdi. Sonradan onların çoxu heca vəzninə qayıtdı. Təəssüf doğuran hal orasındaydı ki, sərbəst vəznin uğurunu heca üsulunu sıxışdırmasında görənlər də az deyildi. Beləliklə, heca vəznli yaradıcılığa ikili münasibət gündəmdən düşmürdü. İş o yerə çatmışdı ki, bir parası S.Vurğun kimi korifeyi bu günə əl verməyən dünənin şairi hesab edirdi. Heca vəzninin sərkərdəsi cismən meydanda olmasa da, onun xəttini qoruyanlar müqavimətsiz geri çəkilmək istəmirdilər. Onların da bəlası sənətə ehkamçı baxışdan yaxa qurtara bilməməklərindəydi. Belələrinin arasında şair Məmməd Rahim daha fəal görünürdü. Ancaq o da yeni axının qarşısını almaqda aciziydi. Tarixini unutduğum bir xatirə. Zuğulbada yaradıcı gənclərin müşavirəsi keçirilirdi. M.Rahim də gənclərin məclisində iştirak edirdi. Arada iki üslubun məziyyətləri barədə mübahisə qızışdı. Sərbəstçilər hücuma keçmişdilər. M.Rahim sinəsini bu qarşısıalınmaz hücumun qabağına verdi. O, tərəf-mübaqillərini heca vəzninin üstünlüklərinə inandırmaq üçün bu səpkidə yazılan şifahi xalq ədəbiyyatına - bayatılara müraciət etdi:

**Əzizim, bəxti yarım,**
**Bəxtimin taxtı yarım.**
**Üzündə göz izi var,**
**Sənə kim baxdı, yarım?**

**Əzizinəm, qanlı gül,**
**Qanlı danış, qanlı gül.**
**Yemiş bülbül bağrını,**
**Çıxmış ağzı qanlı gül!..**

Bu folklor incilərindən umulan kömək də qocaman şairə uğur gətirmədi. Əksinə, gənclər hay-küy salıb onu fitə basdılar. Nə etməli, təkcə həqiqət yox, həm də zaman onun tərəfində deyildi. Bu arada R.Rzanın "Rənglər" silsiləsi dərc olunub oxucuların mühakiməsinə verildi. Şeirlər xeyli dərəcədə mücərrədlik tülünə bürünmüşdü. Hecaçıların öndə gedən yaşlı nümayəndələri dərhal bu fürsətdən yararlanmaq istədilər. Sonradan aydın oldu ki, "Rənglər"i iti təfəkkürün, dərin bilginin, incə ədəbi zövqün köməyilə açmaq olar. Bu tələb olunan keyfiyyətlər irad tutanlarda varıydımı?.. Sənət mübahisələrinin qızğınlığı səngimirdi. M.Araz ümumilikdə xas olmasa da, yeniliçilərin əllaməliyini, mühafizəkarların ehkamçılığını yaxşı görürdü və öz mövqeyini bildirməkdən çəkinmirdi. Belə bir ifadə var: "Köhnə kişilər". Burada köhnəlik qədimlik, dəyanətlilik mənasında işlənir. Hecaçıları bütövlükdə köhnəlik kimi qələmə verənlərə, əsrlər boyu yaranmış ədəbi abidənin üzərindən xətt çəkənlərə M.Araz həmişə təzələnən bir ənənəçi kimi örnək götürüləsi dəlillər gətirir:

**Dünyamız bir sapla asılı göydən,**
**Səsim, bu torpağın səsinə köklən!**
**Desələr şeirimin havası köhnə...**
**Od kimi, su kimi köhnəyəm, bala.**

O biri üzdə də inkarçılar var. Sərbəst şeirin Azərbaycan oxucusunun ruhuna yad olduğunu söyləyən, bu formanın əsas təmsilçisi və ilhamçısı R.Rzanın böyüklüyünə şübhə yaratmağa çalışan hecasevərləri də öz səmimi etirafı ilə yerində oturdur:

**Haqqım yoxdu yamacına düz deyim onun,**
**Ölüm adlı bir araba durur qapıda.**
**Gözü yaşlı misraları az deyil onun,**
**Ağlayanı, sızlayanı çətin tapıla.**

**Ölçülərə boy verməzdi əyilməzliyi,**
**Boz qranit qayalarla duruşu təndi.**
**Göyərtdiyi ölməzliyin, yenilməzliyin**
**Əkinçisi Rəsul idi, barı vətəndi.**

M.Araz sərbəst vəzndə də maraqlı şeirlər yaratmışdır. Bununla belə, o, klassizmə sadiqdir. Ancaq o, bu sadiqliyə donuq ehkam kimi baxmır. Şair nizamlı, hesablı, ölçülü qəliblərdə improvizasiya etməyi sevir. Onun seçilərliyi heca vəzninə yeni ruh, yeni söz düzümü gətirməyindədir. Şair bəziləri kimi yüksüz qızıl qafiyələrə aludə olmur. Demək olar ki, o, yeni, orijinal qafiyə sistemi yaratmağa nail olmuşdur. Yeri gəldikcə, qulaq qafiləyələrindən də imtina etmir. Hətta qafiyə üsyanına vararaq "köhnə qafiyələr - çaylaq daşları"dır deyə qələmdaşlarına bədii nota göndərir. M.Arazın poetik yazı tərzi bənzərsizdir. Yazılarını ərsəyə gətirərkən klassizmdən, çağdaşlıqdan, publisistik ünsürlərdən, tarixi və coğrafi mühitdən ustalıqla yararlanır. Onun şeirləri oxu üstündə olan tarım çəkilmiş kamanı andırır. Hədəf obrazlı ifadələ fəth olunur. "Bir dövlətəm" şeirindən bir parçaya diqqət yetirək:



**Bir balaca dövlətəm mən,**
**Bir balaca ərazim var,**
**Yer kürəsi qonşusunda sınanmağa,**
**Planetlər məclisində tanınmağa ərizəm var.**

**Bir balaca dövlətəm mən -**
**Bayrağımda bir ağ kağız, bir də qələm...**
**Bundan artıq**
**Bəzək-boya istəmirəm.**
**Bir balaca dövlətəm mən!**
**Bu ürəkdən o ürəyə sərhəd xəttim.**
**Ən nizami qoşunumdur**
**Əzəl sevgim, son niftərim.**
**Bir balaca dövlətəm mən!**
**Qələmimdir hərbi nazir,**
**Paytaxtımdır yazı masam.**

Hər bir sənətkarın bir şah əsəri olur. "Dünya sənin, dünya mənim, dünya heç kimin" bədii, elmi və fəlsəfi şeiri də M.Arazın şah əsəridir. Bu yazıda böyük müstəvidə kamil bir sənətkar insan - dünya münasibətlərinin filosofcasına təhlilini aparır. Bu geniş məclisdə iki tərəf var. Bir tərəfdə tiranlar - İsgəndərlər, Atillalar, Çingiz xanlar, Teymurlar, Napaleonlar, o biri tərəfdə filosoflar - Sokratlar, Konfutsilər, Hegellər, Didrolar, Əl Fərabilər, Mahatma Qandilər qərar tutublar. Hərəsinin dünya haqqında bir fikri, bir iddiası var. Bu ali məclisdə şair-filosof Məmməd Araz məruzə edir. O, min illərdən bəri axşamların, sabahların təkəri üstündə yol gedən, ona sahiblik etmək ehtirasına qapılan sərkərdələrin sərsəm başına ağıl qoyan, özünü əbədi sayanlara qəh-qəh çəkən əbədi dünya haqqında fikirlərini bölüşür. Məncə, gəldiyi qənaət doğrudan doğrudur. M.Arazın vəfatı münasibətilə yaxın qohumu, tarixçi-şair, millət vəkili Musa Uruda vurduğum başsağlığı teleqramında bu məsələyə toxunurdum. Deyirdim ki, Azərbaycan ədəbiyyatına ağır itki üz vermişdir. Özündən başqa heç kimə bənzəməyən şair Məmməd Araz dünyasını dəyişmişdir. Qüdrətli şairin itkisi hamımızı göynədir. Yalnız təsəllimiz ondadır ki, azman hökmdarların, dahi filosofların iddialı və mübahisəli bir məsələsini M.Araz "Dünya sənin, dünya mənim, dünya heç kimin" kəlamı ilə müdrikcəsinə cavablandırmış oldu. Düz bir ildir ki, M.Arazın səsini eşitmir, nəfəsini duymuruq. Deməli, o, aramızda yoxdur. Yadınıza salıram. Xeyli yuxarıda mən "yaşamışdı" və "yaşayır" sözlərinin fərqinə varmaq üçün zaman şəkilçilərindən söz açmışdım. Sən demə, icada ümid olduğum bu fikirlərin yiyəsi mən deyiləmmiş. Sən demə, özüm də hiss etmədən M.Arazın R.Rza haqqında nəzmlə dediklərini, sadəcə, mən nəsrə çevirmişəm. Adam heyrətlənir. Şairin dahilər haqqında söylədiyi fikirlər, verdiyi qiymətlər bumeranq kimi qayıdıb özünə də aid olur:

**Söz yaşadan ünvanlarda yaşayır şair,**
**Yaşayıbsa, "yaşamışdı" yazılmayacaq...**

Haqqa bağlanan kamil insan öz ölümünü hiss etdiyi kimi, bu səpkili qüdrətli sənətkarlar da öz böyüklüyünü, ədəbi ərazisinin genişliyini düzgün hiss edir:

**Gündoğandan günbatana mənzilim...**
**Bu da belə bir ömürdü, yaşadım.**

Namusla yaşanan bir ömürdü M.Araz ömrü. Allah can, nəfəs, bacarıq, istedad verdiyi insana ona oxşamaq izni də verib. Yer oğlu şair Məmməd Araz yaratmaq, mənəvi dünyaları cilalamaq eşqində Göy Ustadına çəkdi. Ulu Tanrı sevdiyi bəndəsinə sehrli qələmilə könüllərdə yuva bağlamaq məharəti bəxş elədi. Tanrı vergisindən xəbərdar olduq. Bəs görəsən, M.Araz qələminin, karandaşının kökü kimə, nəyə bağlıydı? Müəmmalı suala şairin özü daha dürüst cavab verir:

**Mən Arazda şaxələnən çinardım,**
**Ömrü boyu tufan əydim, su yardım,**
**Xətainin qılıncını suvardım,**
**Məmməd Araz karandaşı göyərdi.**

Bu karandaşa zaval yoxdur, həmişəyaşıldır bu karandaş. İllər, fəsillər, əsrlər keçəcək, ancaq bəhrəsizliyindən gileylənməyəcək bu karandaş. Bircə xiffəti var. Onu tutan, ona yazı işi tapşıran əl sahibi yoxdur bu dünyada. Karandaş gecə-gündüz sahibini axtarır. Necə ki, təkrarolunmaz müğənni Bülbülün səsi Bülbülü axtarır. Sən demə, M.Arazın Bülbülə həsr etdiyi şeir də ikiünvanlıymış:

**İndi yoxdur, özü yoxdur,**
**Qulağımdan getmir səsi,**
**Haray çəkib səsi onu, onu gəzir...**
**Elə bil ki, yol üstündə**
**Düşüb qalan Misri qılınc,**
**Yüyənsiz bir Qırat olub**
**Onun səsi, - Onu gəzir, Onu gəzir...**

M.Arazın karandaşı M.Arazı, Bülbülün səsi Bülbülü axtarır. Tanrı məsləhəti, dünya sirridir bu hal. Onlar nə tapılandır, nə də itən...

**Dekabr, 2005.**